**Şirvan ki, var hər cəhətdən ülviyyətin aynasıdır...** : "Həssani-Əcəm" Xaqani Şirvani // Azadlıq.- 2013.- 20 aprel.- S.14.

Yalnız Azərbaycanın yox, bütün Yaxın Şərq ədəbi-ictimai fikrinin XII əsrdə yetirdiyi böyük şəxsiyyətlərdən biri də görkəmli şair-filosof, nasir Əfzələddin Xaqani Şirvani olmuşdur. Şairin adı İbrahim, atasının adı Əlidir. Orta əsr mənbələrində o, belə təqdim edilir: Əbu Bədil Əfzələddin İbrahim ibn Əli Nəccar ibn Osman ibn İbrahim Həqaiqi Həssanul-Əcəm Xaqani Şirvani. Burada Həqaiqi, Həssanul-Əcəm və Xaqani onun təxəllüsü, Əfzələddin ləqəbi, Əbu Bədil kunyəsi və Şirvani mənsub olduğu yerin adıdır.
Xaqani 1126-cı ildə Şamaxıda anadan olmuşdur. İlk təhsilini əmisindən almış və dövrünün müxtəlif elmlərinə dərin maraq göstərmişdir. Şair doğma Şirvanı və onun insanlarını əsərlərində dəfələrlə tərənnüm etmişdir:

**Şirvan ki, var, hər cəhətdən ülviyyətin aynasıdır,**
**Onun suyu, səhər yeli dərdlərimin dəvasıdır.**
**Şirvan əhli alicənab yaranmışdır, basdan-başa,**
**O yer gözəl təbiətli bir lətafət məvasıdır.**

Əfzələddinin babası Osman toxuculuqla, ipəkçiliklə məşğul olur, atası Əli dülgərlik edirdi. Anası Rabiə xanım da öz cəhrəsində iplik əyirməklə ailənin dolanacağına kömək edirdi. Rabiə xanım Əfzələddinin tərbiyəsində mühüm rol oynamışdı. Atası Əli Nəccar oğluna öz peşəsini öyrətmək niyyətində olduğu üçün onun təhsilinə xüsusi qayğı göstərmirdi. Lakin həkimlik edən əmisi Kafiyəddin Ömər balaca İbrahimin oxumağa böyük həvəsini görüb, onunla özü məşğul olurdu. Kafiyəddin Ömər həm də filosof idi. Əmisinin xeyirxahlığını Xaqani dəfələrlə etiraf etmişdir:

**Əmim simürq kimi sərf edib əmək,**
**Qanadı altına alaraq, Zal tək -**
**Qaldırdı biliyin Qafına həmən.**
**Bəsləndim onun öz yuvasında mən.**
**O oldu həmişə mənə mehriban,**
**Yaralı könlümə o qoydu dərman.**
**Gördü söz mülkünə mən bir hakiməm.**
**Adımı o qoydu: Həssani-Əcəm.**

Həssani-Ərəb VII əsrdə yaşamış istedadlı şair və Məhəmməd peyğəmbərin yaxın dostu olub. Xaqani bir sıra əsərlərini məhz bu təxəllüslə yazmışdır.

**Dövrünün ən ünlü imzası...**

Şamaxı ədəbi mühitində öz gözəl şeirləri ilə tanınan 18 yaşlı şairin sorağı Şirvanşahlar sarayına da gedib çatmışdır. Xaqani gələcək qaynatası, məliküşşüəra Əbül Üla Gəncəvinin tövsiyəsi ilə sarayda fəaliyyətə başlamış, burada ərəb, fars və türk dillərində qiymətli ədəbi və elmi əsərləri oxuyub, öyrənirdi. “Xaqani” təxəllüsü də ona bir şair kimi ən yüksək zirvədə olduğu üçün verilmişdir.

Əbül Üla saraya gətirdiyi Xaqaninin qısa bir müddətdə əldə etdiyi çox böyük uğurlarını görüb qızını Xaqaniyə nişanlamış və onların izdivacı baş tutmuşdur. Xaqani saray xadimlərini, mənsəb sahiblərini kəskin tənqid edən əsərlər yazır, mədhiyyəçilikdən qurtulmaq, saraydan uzaqlaşmaq üçün çalışırdı. Lakin onun saraydan ayrılmasına imkan verilmirdi. Hətta Xorasana, Kərbəlaya, Məkkəyə gedib müsəlman müqəddəslərini ziyarət etməyə də ona bir müddət icazə vermirlər.

Xaqaninin şəxsi kitabxanasının olması faktı bir sıra mənbələrdə verilən məlumatla tutuşdurulduqda heç bir şübhə doğurmur. M.Rəlili yazır: "Mücirəddin Beyləqani hələ gənc ikən Xaqaninin yanında dərs alır və Şirvanda yaşayırdı. O, Xaqaninin əsərlərinin üzünü köçürməklə məşğul olurdu" . Xaqaninin bir alim və şair kimi formalaşmasında şübhəsiz II Mənuçöhrün sarayında təşkil olunmuş zəngin kitabxananın da böyük rolu olmuşdur. Xaqani "Töhfətül-İraqeyn" əsərində həm Mirzə Kafiyəddinin onun təlim-tərbiyəsi ilə məşğul olması, həm öz dövrünün bəzi məşhur dini kitabları, həm də böyük bir kitabxana haqqında məlumat vermişdir.

Saray mühiti şairi bezdirdiyi üçün o, böyük çətinliklə olsa da İraqa, oradan da Məkkeyi-mükərrəməyə getməyə razılıq alır. Şair 1170-ci ildə saraydan uzaqlaşmaq məqsədilə Şirvanı xəbərsiz-ətərsiz tərk etməyə təşəbbüs göstərir. Lakin I Əhsitanın əmri ilə tutulub geri qaytarılır, Şabran qalasında zindan həyatı yaşamağa məhkum edilir. Şairin zindan əzablarını əks etdirən məşhur "Həbsiyyə"sinin ibrətamiz beytləri yaranır.

Xaqani Şirvani Şamaxıdakı saray mühitinin əzici təsirinə dözməmiş, Məkkəyə ziyarətə getdikdən sonra bir daha saraya qayıtmayaraq Təbrizdə məskən salmışdır. O, 1199-cu ildə, 73 yaşında ikən dünyasını dəyişmiş, Təbrizdə görkəmli şairlərin şərəfinə "Məqbərütüş-şüəra" adlandırılan qəbiristanlıqda dəfn olunmuşdur. XX əsrin qüdrətli Azərbaycan şairi Məhəmmədhüseyn Şəhriyarın da məzarı bu qəbiristanlıqdadır. Nizami Gəncəvi adına Milli Azərbaycan ədəbiyyatı Muzeyində Xaqaninin qəbir daşının bu məzmunda estanpajı qorunub saxlanır: "Bu qəbir rəhmətlik, bağışlanmış, filosofların və şairlərin böyüyü, həkim Əfzəbddin İbrahim Xaqani ibn Əli Şirvaninindir. Hicri beş yüz doxsan beşinci ilin şəvval ayı".

**17 min beytlik lirik şeirlər divanı və tarixi bir irs...**

Xaqaninin zəngin ədəbi irsi 17 min beytlik lirik şeirlər divanı, "Töhfətül-İraqeyn" poemasından, bədii nəsrin maraqlı nümunələri olan 60 məktubdan ibarətdir. Divanındakı şeirlər qəsidə, qəzəl, mədhiyyə, mərsiyə, rübai və s. ibarətdir. Onun ictimai-fəlsəfi məzmunlu əsərlərinə "Şiniyyə" və "Mədain xərabələri" qəsidələri, "Həbsiyyə" şerləri və "Töhfətul-İraqeyn" poeması daxildir. "Kitabi-Dədəm Qorqud" eposunun bizə gəlib çatmış əlyazma nüsxələrinin köçürülmə tarixi XVI əsrdə Dövrün ən böyük şairlərindən biri kimi tanınan Əfzələddin Xaqani yaradıcılığında diqqəti ən çox çəkən cəhət, hər beytdə, hər misrada özünü göstərən dərin obrazlılıq və elmilikdir.

"Töhfətül-İraqeyn" Xaqani yaradıcılığının ən parlaq nümunələrindən biridir. "Töhfətül-İraqeyn" Xaqaninin Kufə, Nəcəf, Məkkə, Mədinə, Şam, Mosul və digər Yaxın Şərq şəhərlərinə canlı təəssüratlarını əks etdirən çox qiymətli, real tarixi-bədii təsvirlərlə zəngin bir əsərdir. "Töhfətül-İraqeyn"in "Paxılların məzəmməti" adlı 35-ci babında şair Şirvanşaha müraciətlə xahiş edir ki, onu saraydan kənar etsin. Məhz bu əsərində o özünü bütün sənət aləmində məşhur edən "Xaqani" təxəllüsündən qətiyyətlə imtina edir:

**İstəmirəm adımı çağıralar Xaqani,**
**Mən yoxsullar şairi Xalqaniyəm, Xalqani!**

Xaqani həm də Azərbaycan ədəbiyyatında ən böyük lirik şairlərdən biri kimi tanınır. Onun qəzəl və rübailərində Azərbaycan poeziya məktəbinin ən yaxşı ənənələrinin əsası qoyulmuşdur. Xaqani yaradıcılığında Azərbaycan poetik məktəbinin öz əksini tapmış özəlliklərindən biri də türklüyə dərin məhəbbətdir. Sonralar Nizami yaradıcılığında bu xüsusiyyət özünün zirvəsinə çatmışdır. Azərbaycan ədəbiyyatının məşhur tədqiqatçısı Həmid Araslı özünün "Xaqani Şirvani" kitabına böyük sənətkarın məhz bu qənaətini epiqraf vermişdi: "Azadlıqdan gözəl nemət yoxdur..."

Xaqaninin 20 yaşında ikən dünyasını dəyişmiş oğlu Rəşidin vəfatı münasibətilə yazdığı mərsiyə çox təsirlidir:

**Firqətində bala, bundan da betər yansın atan,**
**Söndü şəmin, kor olub qüssədən odlansın atan.**
**Kəkliyim, təşnə dodaqlar ilə uçdun, gözü qan,**
**Bir turac tək sənin arxanca qanadlansın atan.**

"Mədain xərabələri" Xaqaninin müxtəlif dillərə dönə-dönə tərcümə olunmuş ən populyar, dərin məzmunlu qəsidələrindən biridir. Bu qəsidədə şair Şərq tarixinin ən gurultulu və zəngin hökmdar sülalələrindən Sasanilərə məxsus möhtəşəm "Taqi-Kəsra" sarayının qalıqlarının timsalında təcavüz, zülm, əsarət nəticəsində ucaldılan səltənətlərin hökmən yerlə yeksan olacağını təsvir etmişdir.